

# HESABAT – 2011

NATIONAL ACADEMY OF SCIENCES OF AZERBAIJAN
INSTITUTE OF ARCHAEOLOGY AND ETHNOGRAPH

# ARCHAEOLOGICAL RESEARCHES IN AZERBAIJAN 2011

Baku – 2012

***Məsul redaktor:*** **M.N.RƏHİMOVA**
*tarix elmləri doktoru*

***Redaksiya heyəti:*** **T.Ə.Bünyadov**
*AMEA-nın həqiqi üzvü*

**İ.A.Babayev**
*AMEA-nın müxbir üzvü*

AZƏRBAYCANDA ARXEOLOJİ TƏDQİQATLAR – 2011

Bakı, *"Xəzər Universiteti"* nəşriyyatı, 2012, 402 səh.

**ISBN 978-9952-8209-2-8**

AFpoliqrAF *mətbəəsində çap olunmuşdur*

AZ1143, Bakı şəhəri
Hüseyn Cavid prospekti, 31
Tel.: +(99412)4393649
E-mail: arxeoetno@archaeology.org.az

*© Arxeologiya və Etnoqrafiya İnstitutu, 2012*

# MENTEŞ QƏDİM YAŞAYIŞ YERİNDƏ ARXEOLOJİ TƏDQİQATLAR
(Tovuz)

Fərhad Quliyev və Bertille Lyonnetin
rəhbərliyi ilə
**Fransa heyəti** - L. Bouquet, G. Bruley-Chabot, L. Pecqueur, P. Raymond, A. Samzun M. Poulmarc'h və
**Azərbaycan heyəti** – O.Zamanov, Y.Məmmədov, V.Ələkbərov, Ş.Səlimbəyov M.Mirqədirov, S.N.İbrahimli, E.Muradova, A.Əliyeva

**Giriş**

Son dörd il ərzində Menteş qədim yaşayış yerində aparılmış arxeoloji qazıntılar özündə son neolit və ilk tunc dövrlərini əks etdirən Cənubi Qafqazda mükəmməl bir yaşayış yerini üzə çıxardı. Qazıntılardan aşkar edilmiş materialların (sümük alətlər, iri daş alətləri, bitki qalıqları, metal əşyalar və keramika məmulatı) və həmçinin yaşayış yeri ətrafında geomorfoloji analizlərin ilkin araşdırmalarının nəticələri hesabatmızda öz əksini tapmışdır.

Burada üç əsas dövr aşkar edilmişdir. Buna görə də Menteş qədim yaşayış yeri Cənubi Qafqazda xüsusi özəllikləri ilə seçilən arxeoloji abidə hesab edilir. Bu ondan irəli gəlir ki, Menteş abidəsində son neolitdən – ilk tunc dövrünə qədər heç bir fasilə olmadan uzun bir yaşayış dövrü müşahidə edilmişdir. Dövrlər müvafiq olaraq üst təbəqədən alt təbəqəyə qədər ardıcıllıqla davam etmişdir.

**1. Kür – Araz dövrü**

Qədim yaşayış yerinin 1970-ci illərdə dağıntıya məruz qaldığı aşağı təbəqəsinin öyrənilməsi prosesi başlanıldı. Dağıntılar olduğu üçün heç bir memarlığ qalığına rast gəlinməsə də, abidənin alt təbəqələrinə qədər qazılmış sahələrdə aşkar edilmiş arxeoloji materiallar Kür-Araz və eneolit dövrlərinə aid idilər. Aparılmış radiokarbon analizlərinin nəticələri göstərir ki, qazıntı sahəsinin bu hissəsi e.ə. III minilliyin II yarısına aiddir.

Bu il aparılan çöl tədqiqat işləri zamanı ikinci kurqanın qazıntılarına da start verilmişdir. Bu kurqan 2008–2009 cu illərdə qazılmış kurqandan təqribən 15 m aralıqda yerləşir. Kurqanın üst təbəqəsində mövcud olan iri sal daş parçaları demək olar ki, toxunulmamış olaraq qalmışdır **(şək. 1)**. Bu il aparılmış tədqiqat işlərinin başlıca hədəfi kurqanın üst hissəsində olan daş parçalarından təmizləmək olmuşdur. Bundan əlavə kurqanın ölçüsünü və yaşayış yerinin içərisinə doğru nə qədər daxil olduğunu müəyyən etməkdən ibarət olmuşdur **(şək. 2)**. Kurqanın hansı dövrlə bağlı olduğu radiocarbon analizlərdən sonra müəyyən ediləcəkdir.

**Kalkolit (Eneolit) Dövrü**

Bu dövrə aid olan təbəqə başlıca olaraq çiy kərpiclərdən tikilmiş düzbucaqlı formalı tikililərindən ibarətdir. Çiy kərpiclərdən ibarət olan divar qalıqları təqribən 50 sm hündürlükdə qalmışdır. Buradan bir neçə iri həcimli küplər, təsərrüfat quyuları, çoxlu sayda ocaq yerləri və sobalar aşkar edilmişdir. Sobalar (1x0,7 m) düzbucaqlı formasındadır, divar qalıqlarına əks istiqamətdə yerləşirlər. Ocaq yerləri isə dairəvi formalıdır (0.5 və bəzən də 1.5 m diametrində) və onların döşəmələri adətən çay daşları yaxud da gil və keramika parçaları ilə örtülüdür. Kənarları isə gil ilə suvanmışdır.

Qazıntı sahəsinin cənub-qərb hissəsində üç dairəvi formalı ocaq yeri (çox güman ki, keramika bişirmək üçün sobadır) çoxlu sayda keramika parçaları ilə birlikdə rast gəlinmişdir. **(şək. 3)**. Lakin təəssüf ki, ikinci kurqan öz dövründə yaşayış yerinin üzərində salındığı üçün qazıntı sahəsinin bu hissəsi nisbətən dağılmışdır.



Şəkil 1. İkinci kurgan.




Şəkil 2. Kalkolit (Eneolit) təbəqələri.



Düzbucaqlı tikilidən əvvəl, dirək yerləri olan təbəqə aşkar edilmişdir (şək. 4). Bu təbəqə bir neçə təsərrüfat quyuları və xeyli iri dairəvi ocaq yerlərindən ibarətdir, bunlardan biri təsərrüfat quyusunun alt hissəsində, digəri ona bitişik və üçüncüsü isə düzbucaqlı sobanın alt hissəsində yerləşir.

2. Son Neolit və Erkən Kalkolit (Eneolit) Dövrü

Keramika parçaları ilə birlikdə aşkar edilmiş bir neçə qat dairəvi tikililərin üzə çıxarılması bizim üçün çox əhəmiyyətli tapıntı olmuşdur. Həqiqətən, 2009 cu ilin qazıntıları zamanı dairəvi tikilinin bir hissəsi aşkar olunmuşdur, lakin, tikili ilə əlaqəli heç bir material qalıqları üzə çıxarılmamışdır.

Qazıntı zamanı aşkar edilmiş divarlar dağılmış formada təqribən 0,30 m hündürlükdə qalmışdır və onların kərpicdən yaxud da gildən tikildiyini müəyyən etmək çətindir. Tikililərin diametri 3–6 m diametrləri arasında fərqlənir. Dən daşları istisna olmaqla, az sayda material qalıqları yerində aşkar edilmişdir.



Şəkil 3. Üç iri ocaq yeri.



Şəkil 4. Çiy kərpic divarlarından ibarət düzbucaqlı tikili altında aşkar edilmiş üzərində sütun dirəkləri olan təbəqə.



Şəkil 5. Aşağı təbəqədə mövcud olan dairəvi tikililər.

Qazıntı zamanı uşaq qəbirin aşkar edilmişdir. Bu qəbir dairəvi tikili divarının içəri hissəsi boyunca yerləşir lakin, digər bir dairəvi divar ilə örtülmüşdür. Burada heç bir çuxur aşkar edilməmiş və qəbirin üst hissəsi çox güman ki, ağac budaqları ilə örtülmüşdür, çünki, burada skeletin üst və ətraf hisələrində xeyli sayda həmin ağacın meyvələrinin çürüntüləri rast gəlinmişdir. Qəbir kamerasında baş tərəfdə donuzun çənə sümüyünün bir hissəsi ayaq tərəfində isə sümükdən biz alət aşkarlanaraq üzə çıxarılmışdır. Qeyd etmək lazımdır ki, Cənubi Qafqazda bu dövrlə bağlı qəbirlərin aşkar olunması çox nadir hadisədir. Sümüklər üzərində antropoloji analizlər aparılmışdır.

Aşkar olunmuş materialların tədqiqatları

Sümükişləmənin ilkin araşdırmaları

Menteş təpə abidəsində dörd il müddətində aparılmış qazıntılar zamanı 37 ədəd sümükdən (heyvan) olan material aşkar edilmişdir. Bu il üzə çıxarılmış daha aşağı qatlarda çox güman ki, sümükdən olan əşyalara və alətlərə rast gəlinmişdir. Onların əksəriyyəti (24) uzun sümüklərdən hazırlanmışdır. 9 ədəd kəsici və küt alətlər üzə çıxarılmış, onlardan üçü iri heyvanların bel sümüyündən hazırlanmış çömçələr, bunlardan biri Eneolit dövrünə aid sobada aşkarlanmışdır. Qeyd etmək lazımdır ki, sümük alətləri üzərində çox tez tez hallarda oxraya rast gəlinmişdir.

1- İri daş alətləri

Menteş təpə abidəsində dörd il müddətində aparılmış qazıntılar zamanı əsasən (Kalkolit) Eneolit təbəqələrində 225 ədəd daş alətləri aşkar edilmişdir. Həmin daş alətlər 20 növdə olmaqla yanaşı dən daşı, sürtmək və əzmək kimi müxtəlif faliyyətləri özündə əks etdirir. Bəzi alətlər üzərində (işlənmə texnologiyaları, üzərindəki oxra izləri və s) analizlər aparılmışdır. Müxtəlif növ daşlar yığılaraq toplanmış və onların əksəriyyəti yaxın ətraf ərazilərdən gəlmişdir (10 km). İki ədəd cilalanmış balta və bir neçə əl üçün nəzərdə tutulmuş kiçik dən daşları istisna olmaqla, alətlərin əksəriyyəti çox az formada cilalanmışdır.




Şəkil 6. Həvəngdəstə.

56 ədəd dən daşları alətləri və onların arasında 15 ədəd əl üçün nəzərdə tutulmuş kiçik dən daşları və 27 ədəd bülöv daşı müəyyən edilmişdir. Qısa və bir tərəfi düz olan iki növdə dən daşları təyin edilmişdir. Onlar müxtəlif ölçülərdə və texnoloji cəhətdən çox fərqlilik nümayiş etdirir, lakin, onların funksiyasının və xronologiyasının fərqli olub olmadığı barədə hələ heç bir məlumatımız yoxdur. Əl üçün nəzərdə tutulmuş kiçik dən daşları adətən dən üyütmək üçün istifadə olunurdu.

2 ədəd həvəngdəstə aləti (biri qranit digəri isə əhəng daşından) və metamorfik qaya parçalarından hazırlanmış 40 ədəd həvəngdəstə tutacağı (şək. 6) da aşkarlanmışdır. Bunlardan 5–i üzərində xüsusi analizlər aparılmışdır: onlardan ikisi bitkilərin istehsalında istifadə olunmuş və digər ikisi isə oxra kimi rəngli materialllarin hazırlanmasında istifadə olunmuşdur.


Şəkil 7. Cilalamaq və yonmaq üçün alət.

Metamorfik qaya parçalarından hazırlanmış çəkic funksiyasını həyata keçirən daş alətlərin əksəriyyəti əl üçün nəzərdə tutulmuş kiçik dən daşlarının və digər daş alətlərin cilalanmasında və hazırlanmasında istifadə olunmuşdur.


Şəkil 8. Əhəngdaşı.

Çox az sayda sürtmək və cilalamaq üçün alətlər aşkar edilmişdir.Üzəri cilalanmış 24 ədəd çay daşı aləti gil əşyaların hazırlanmasında və çox güman ki, alətlərin itilənməsində və cilalanmasında istifadə olunmuşdur (şək. 7). 4 ədəd əl daşı alətləri aşkar edilmişdir (heyvan dərisi və bitki liflərinin istehsalı üçün).

Nəhayət, bir neçə ədəd iri çay daşları və ağız hissəsi cilalanmış bazalt daşları da qazıntılar zamanı aşkar edilmişdir. Onlardan biri tiyə uclu daş aləti parçasıdır ki, bu da əhəng daşı alətlərinin hazırlanmasında istifadə olunmuşdur.

Qazıntı sahəsindən əhəng daşından giriş oyuqları, xeyli sayda kiçik qabların bir neçə fraqmentləri (şək. 8) və bir neçə bəzək əşyaları aşkar edilmişdir. 2- Bitki qalıqlarının ilkin araşdırmaları Bitki qalıqları bitkinin toxumları və meyvələri və həmçinin kömür parçaları tərkibində bitki çürüntülərindən ibarətdir. Yabanı olmayan (yeməli) bitkilərin analizləri əkin – biçindən sonra bitkilərin istifadəsinin incəliklərini müəyyən edəcəkdir. Yabanı bitkilərin digərlərindən ayırd edilməsi yaşayış sahəsi

ətrafında höküm sürmüş ətraf mühitin araşdırılmasına şərait yaradır. Aşkar edilmiş bitki qalıqlarının əkəriyyəti kömürləşmişdir və ocaq yerləri, çuxurlar, silos quyuları və tikililərin döşəmələri üzərindən yığılaraq toplanmış torpaq qatlarının yuyularaq təmizlənməsi nəticəsində əldə edilmişdir. Müxtəlif bitki növlərinin izləri gil və keramika parçaları üzərindən müəyyən edilmişdir. Ümumilikdə 1826 litr torpaq qatlarının yuyulması nəticəsində 147 ədəd müxtəlif nümunələr aşkar edilmişdir. Bunların əksəriyyəti 2011 ci ilin qazıntılarından əldə edilmişdir.

Analizlər hələ sona yetməmiş lakin, burada arpa, buğda və mərci bitki növlərinin yeməli bitki növləri olmalarını qeyd etmək istərdik.

3- Metaldan olan materialların tədqiqatı

2011 ci ilin qazıntıları zamanı Menteş təpədə 36 ədəd metaldan olan məmulatlar üzə çıxarılmışdır. Bunlar əsasən bizlər, iki ədəd funksiyası müəyyən olmayan alət, bir ədəd üzük parçası, bir neçə ədəd filiz parçaları, üç ədəd dalğavarı üzük, bir ədəd yastı formalı bəzək əşyası və iki ədəd metal ərintisindən sonra qalan qalıqlardan ibarətdir. Aşkar edilmiş əşyaların əksəriyyəti Eneolit (Kalkolit) təbəqələrindən müəyyən edilmişdir. Yalnız dalğavarı üzüklər Kür–Araz dövrünə və bir ədəd yastı formalı bəzək əşyası ikinci kurqana aid edilə bilər.

Boxum Laboratoriyaında aparılmış analizlər yalnız 2008 və 2010-cu illərin tapıntılarına şamil edilir. EDS və ICP-MS analizləri göstərir ki, tapıntıların əksəriyyəti əridilməmiş misdən ibarətdir. Yalnız üç metal nümunəsinin (iki ədəd biz və funksiyası bəlli olmayan metal əşya) arsenik metal növü olduğu göstərilir (1,2 to 3,57% As). Digərinin tərkibində yüksək dərəcədə kükürdün olduğu məlumdur (8,1% S). Menteş təpədən aşkar edilmiş metal əşyaların üzərində müəyyən edilmiş xarakterik elementlər dəmir (Fe), qurğuşun (Pb), nikel (Ni) və sürmə (Sb) elementlərinin olmasıdır.

4- Alt təbəqədən aşkar edilmiş keramika nümunələri

2011-ci ilin qazıntıları zamanı Menteş təpədən təqribən 10.000 ədəd keramika parçaları aşkar edilmişdir (əsasən dairəvi memarlıq tikililərindən üzə çıxarılmış keramika nümunələridir).

Bu nümunələr iki cür qruplaşdırılır. Birinci qrup Şomutəpə–Şulaveri, ikinci qrup isə Əliköməktəpə ilə yəni Muğan Düzü ilə əlaqəlidir (şək. 9-10-11).



Şəkil 9. Alt təbəqədən aşkar edilmiş keramika nümunəsi.



Şəkil 10. Alt təbəqədən aşkar edilmiş keramika nümunəsi.



Şəkil 11. Alt təbəqədən aşkar edilmiş keramika nümunəsi.

5- Orta Kür boyunca Geomorfoloji tədqiqatlar

Geomorfoloji tədqiqatların əsas hədəfi Kür çayı və Ağstafa çaydan Şəmkir çaya qədər Kürün bütün qollarına Xəzər dənizinin müdaxilə edib etmədiyini araşdırmaqdan ibarət idi. Çayların öz mövqeyini dəyişdirdiyi dövrü müəyyən etmək məqsədilə müxtəlif terraslardan 25 ədəd kömür qalıqları toplannmış və əvvəlki ilərdə yığılan nümunələrə əlavə edilmişdir. İlkin araşdırmalar göstərir ki, Xəzər dənizi ilə çayların öz mövqeyini dəyişməsi arasında bir əlaqə olmuşdur. (şək. 12). Yer səthinin landşaftında baş vemiş dəyişikliklər də həmçinin yaşayış sahələrinin yerləşmə mövqeyinin dəyişməsinə də təsir göstərmişdir.

E.ə. VI-III-cü minilliklərdə mövcud olmuş yüksək dəniz səviyyəsi hündür çay səviyyələrini əmələ gətirmiş və nəticə etibarilə Kiçik Qafqaz Sıra Dağlarının ətəyində iri torpaq yığınları təbii olaraq su ilə yuyulmuşdur. Əksər Neolit dövrü qədim yaşayış məskənləri burada yerləşir.

Eneolit dövrü yaşayış məskənləri isə adətən çay axınından nisbətən aşağı səviyyədə aşkar edilmiş və əksəriyyəti qalın torpaq qatları ilə örtülmüşdür.






Şəkil 12. Xəzər dənizinin səviyyələri (mavi) və çayların gətirdiyi əlaqəli təbəqələr (sarımtıl-qəhvəyi).

АРХЕОЛОГИЧЕСКИЕ ИССЛЕДОВАНИЯ ДРЕВНЕГО ПОСЕЛЕНИЯ МЕНТЕШ
под руководством
Фархада Гулиева и Bertille Lyonnet
Французская делегация – L. Bouquet, G. Bruley-Chabot, P. Raymond, A. Samzun, M. Poulmarc'h и
Азербайджанская делегация – О.Заманов, Я.Мамедов, В.Алекперов, Ш.Салимбеков, М.Миргадиров, С.Н.Ибрагимли, Э.Мурадова и А.Алиева

РЕЗЮМЕ

Археологические раскопки, проведенные за последние четыре года на месте древнего поселения Ментеш выявили поселение на Южном Кавказе, охватывающее периоды позднего неолита и ранней бронзы. В статье нашли отражение итоги первоначальных исследований, обнаруженных во время расскопок, материалов и геоморфологического анализа прилегающей к поселению территории.

На поселении выявлены три основных периода. Поэтому Ментеш считается археологическим объектом, отличающимся на Южном Кавказе своими особенностями. Долгое и непрерывное заселение поселения продолжалось, начиная с Позднего Неолита до Ранней Бронзы.

ARCHAEOLOGICAL INVESTIGATION AT ANCIENT SETTLEMENT OF MENTESH
Directed by Farhad Guliev and Bertille Lyonnete
French team - L.Bouquet, G.Bruley-Chabot, L.Pecqueur, P.Raymond, A.Samzun M.Poulmarc'h and
Azerbaijan team – O.Zamanov, Y.Mammadov, V.Alakbarov, Sh.Salimbayov M.Mirqadirov, S.N.İbrahimli, E.Muradova and A.Aliyeva

SUMMARY

Over the last four years of archaeological investigation at ancient settlement of Mentesh in the Neolithic and early Bronze Age periods revealed a perfect place of settlement in the South Caucasus. The results of materials found in excavations (bone tools, a large stone tools and the remains of plants, metal objects and ceramics) as well initial research of morphological analysis along the settlement was reflected in our report.

The three main periods have been found here. Therefore, ancient settlement of Mentesh is consi- dered an archaeological monument which is charac- terized by special features in the South Caucasus. This is due to the fact that there was a long period of ac- commodation without a break from the last Neolithic period until the Early Bronze Age in Mentesh monu- ment. Respectively, from the upper layer to the lower layer has a sequence of periods.

SİTALÇAY KURQANLARI ....................................................................................................................................139
Q.O.Qoşqarlı, V.A.Əsədov, T.D.Babayev

GÖYGÖL-GORANBOY ARXEOLOJİ EKSPEDİSİYASININ GORANBOY RAYONU
ƏRAZİSİNDƏ APARDIĞI TƏDQİQATLAR ...........................................................................................146
B.M.Cəlilov

ŞAHTAXTI ABİDƏLƏR KOMPLEKSİNDƏ ARXEOLOJİ TƏDQİQATLAR ................................................156
Q.H.Ağayev, Z.H.Rzayev

PLOVDAĞ YAŞAYIŞ YERİNDƏ APARILMIŞ ARXEOLOJİ QAZINTI İŞLƏRİ ...........................................161
B.İ.İbrahimli, H.İ.Qədirzadə, T.F.Xəlilov, T.Q.Qədirzadə

BƏRDƏ ARXEOLOJİ EKSPEDİSİYASININ APARDIĞI ARXEOLOJİ QAZINTILARIN
NƏTİCƏLƏRİNƏ DAİR .......................................................................................................................170
A.M.Məmmədov, M.İ.Rəcəbov

SUMBATAN-DİZƏ YAŞAYIŞ YERİNDƏ ARXEOLOJİ TƏDQİQATLAR ......................................................175
B.İ.İbrahimli, T.F.Xəlilov, H.Q.Qadirzadə, L.N.Əhmədova

QAZAX ARXEOLOJİ EKSPEDİSİYASININ SARVANTƏPƏ YAŞAYIŞ YERİNDƏ
APARDIĞI ARXEOLOJİ TƏDQİQATLAR .............................................................................................180
Ş.N.Nəcəfov



RƏSUL DƏRƏSİ YAŞAYIŞ YERİNDƏ APARILMIŞ ARXEOLOJİ QAZINTI İŞLƏRİ .........................................190
Q.S.İsmayılzadə, B.İ.İbrahimli, T.F.Xəlilov

YASTITƏPƏ SON TUNC-İLK DƏMİR DÖVRÜ YAŞAYIŞ YERİNDƏ APARILMIŞ
ARXEOLOJİ QAZINTILARIN YEKUNLARI ...........................................................................................196
Ş.N.Nəcəfov, Z.C.Hacılı

ABŞERON ARXEOLOJİ EKSPEDİSİYASININ TƏDQİQATLARI .................................................................207
İ.N.Əliyev, C.İ.Əliyev

QƏBƏLƏ ARXEOLOJİ EKSPEDİYASI ANTİK QƏBƏLƏ DƏSTƏSİNİN ÇÖL-TƏDQİQAT
İŞLƏRİ HAQQINDA ...........................................................................................................................213
İ.A.Babayev, E.Ə.İskəndərov, N.Ə.Alışov, L.X.Mustafaev, R.İsmayılov

MEYDANTƏPƏ YAŞAYIŞ YERİNDƏ ARXEOLOJİ TƏDQİQATLAR ..........................................................221
Ə.H.Bədəlov, A.A.Əsədov

QALATƏPƏ ANTİK ALBAN ŞƏHƏR MƏSKƏNİ VƏ NEKROPOLUNDA TƏDQİQATLAR .......................226
T.R.Əliyev, F.İ.Babayev, T.T.Hüseynova, G.İ.Əliyeva, V.B.Abbasov, V.T.Əliyev

V SANDIQTƏPƏ ABİDƏSİNDƏ TƏDQİQATLAR ....................................................................................235
M.C.Xəlilov

GÜLÜSTAN QALASINDA APARILAN ARXEOLOJİ TƏDQİQATLAR ..........................................................240
A.A.Quliyev

ŞƏMKİR ŞƏHƏR YERİNDƏ APARILAN ARXEOLOJİ QAZINTILAR ..........................................................248
T.M.Dostiyev, R.Y.Başirov, N.N.Hüseynli, R.H.Mirzəyev

GƏNCƏDƏ ARXEOLOJİ TƏDQİQATLAR ..... 266
A.M.Məmmədov, T.V.Əliyev

ŞƏHRƏRGAHDA ARXEOLOJİ TƏDQİQATLARIN YENİ NƏTİCƏLƏRİ ..... 271
Q.C.Cəbiyev, E.İ.Abbasova

QƏBƏLƏ (SƏLBİR) ŞƏHƏR YERİNDƏ ARXEOLOJİ TƏDQİQATLAR ..... 278
C.T.Eminli

QƏBƏLƏDƏ (QALA) ARXEOLOJİ TƏDQİQATLAR ..... 297
Q.C.Cəbiyev, F.S.Xəlilli, E.İ.Abbasova

NEFTÇALA RAYONUNA ELMİ EZAMİYYƏTİN NƏTİCƏLƏRİ..... 302
A.M.Ağalarzadə

AĞSUDA ARXEOLOJİ TƏDQİQATLAR ..... 310
Q.C.Cəbiyev, F.S.Xəlilli, E.İ.Abbasova

ARXEOLOJİ KƏŞFİYYAT ..... 318

SAHDƏNİZ–2 İNFRASTRUKTUR LAYİHƏSİ İLƏ BAĞLI SƏNGƏÇAL TERMİNALININ GENİŞLƏNDİRİLƏCƏYİ ƏRAZİDƏ APARILMIŞ ARXEOLOJİ KƏŞFİYYAT İŞLƏRİNİN YEKUNLARI ..... 319
Q.O.Qoşqarlı, Ş.N.Nəcəfov, V.A.Əsədov, A.M.Ağalarzadə, Ə.İ.Əbdürəhmanov, T.D.Babayev

LERİKDƏ ARXEOLOJİ TƏDQİQATLAR ..... 333
A.İ.Ələkbərov, A.M.Mirabdullayev, T.H.Əzizov, S.K.Kərimov

İMİŞLİ RAYONU ƏRAZİSİNDƏ APARILMIŞ ARXEOLOJİ KƏŞFİYYAT İŞLƏRİ ..... 342
M.M.Mustafayev

GƏDƏBƏYDƏ ARXEOLOJİ TƏDQİQATLAR ..... 346
T.N.Göyüşova

BEYNƏLXALQ EKSPEDİSİYALAR ..... 352

MENTEŞ QƏDİM YAŞAYIŞ YERİNDƏ ARXEOLOJİ TƏDQİQATLAR ..... 353
Fərhad Quliyev, Bertille Lyonnet

OĞLANQALADA AZƏRBAYCAN–AMERİKA BİRGƏ ARXEOLOJİ QAZINTILARI ..... 360
L.Ristvet, H.Gopnik, V.B.Baxşəliyev, S.H.Aşurov

BEYNƏLXALQ ŞƏMKİR-QARACƏMİRLİ ARXEOLOJİ EKSPEDİSİYASININ ÇÖL-TƏDQİQAT İŞLƏRİ HAQQINDA..... 379
İ.A.Babayev, Y.Qaqoşidze, F.Knauss, A.Balaxvantsev, E.Ə.İskəndərov, N.Ə.Alışov, F.Gutschke, M.Gutte, G.Wüsten-Leyderwald, C.Gentzsch, J.Schöweitz

MOUNDS AND SETTLEMENTS IN THE LOWER QARABAKH - MIL PLAIN, AZERBAIJAN..... 386

B.Helwing, T.R.Aliyev, and A.Ricci

AZƏRBAYCANDA ARXEOLOJİ TƏDQİQATLAR – 2011

*"Xəzər Universiteti"* nəşriyyatı
Bakı, 2012

AFPoliqrAF *mətbəəsində çap olunmuşdur*

Mətbəənin direktoru: F.R.Hüseynov
Texniki redaktor: A.Q.Rəsulov
Dizayn: Ə.Q.Əliyev

Formatı 64x90[1] /16.
Həcmi 25 ç.v.
Tirajı 500